# ƏRZAQ TƏHLÜKƏSİZLİYİNİN TƏMİN EDİLMƏSİNİN AKTUALLIĞI

*Hüseynova E.Y., i.f.d., dosent*
*Adıgözəlova Lalə Xələddin qızı*
*Mingəçevir Dövlət Universiteti*

Ərzaq təhlükəsizliyinin təmin edilməsi hər bir dövlətin ən mühüm strateji məqsədidir. Azərbaycan üçün ərzaq təhlükəsizliyinin formalaşması dövlətin həyat qabiliyyətinin göstəricisidir. Bu baxımdan ərzaq təhlükəsizliyi kateqoriyasının mənasını müəyyən etmək məqsədəuyğun olardı.

1996-cı ildə qida problemləri ilə bağlı keçirilən Dünya Qida Sammitində qida təhlükəsizliyi anlayışı müəyyən edilmişdir. Qida təhlükəsizliyi "bütün insanlar sağlam və aktiv həyat tərzi keçirmələri üçün istənilən vaxt kifayət miqdarda keyfiyyətli qida əldə etdikdə" yaranan vəziyyət olaraq müəyyənləşdirilmişdir. Bir qayda olaraq, qida təhlükəsizliyi anlayışı insanların qidaya olan ehtiyaclarını, o cümlədən onların qida üstünlüklərini təmin edən qidanı həm fiziki, həm də iqtisadi baxımdan əldə edə bilmək imkanını özündə ehtiva edir. Qida təhlükəsizliyi həmçinin insanların aktiv və sağlam həyat tərzi sürmələri üçün istənilən vaxt kifayət qədər qida əldə edə bilmək imkanları əsasında qurulmuşdur. Qida təhlükəsizliyi aclıq, quraqlıq, müharibələr, iqtisadi qeyri-sabitlik kimi risk faktorları səbəbindən gələcəkdə qida qıtlığını aradan qaldırmaq üçün qida sabitliyini və məhsuldarlığını artırmaqla bağlı tədbirləri özündə ehtiva edir.

Aqrar sənaye sektorunun tənzimləyici strukturlarının qarşısında duran əsas məqsədlər, ilk növbədə, ölkənin ərzaq təhlükəsizliyini təmin etmək, yəni ehtiyacları ödəmək üçün həm fiziki, həm də iqtisadi cəhətdən kifayət qədər müəyyən miqdarda əsas ərzaq növlərinin istehsalını təşviq etməkdir. Ərzaq təhlükəsizliyinin təmin edilməsində aparıcı rol aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə məxsusdur. Milli iqtisadiyyatın əlaqəli sahələrinin səmərəliliyinin yüksəldilməsi, qida sektorunun formalaşması və onun ərzaq idxalından asılılıq dərəcəsinin azalması, habelə ölkə əhalisinin sosial vəziyyəti və ödəmə qabiliyyəti daha çox onun uğurlu inkişafından asılıdır.

Azərbaycan Respublikasında əhalinin keyfiyyətli və təhlükəsiz ərzaq mallarına tələbatının daha dolğun və davamlı təmin edilməsi istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlər öz müsbət nəticələrini verməkdədir. Bununla yanaşı, ölkədə qida və kənd təsərrüfatı məhsullarının istehsal və idxal-ixrac həcminin artması, istehlakçıların sağlamlığının qorunması və hüquqlarının müdafiəsi kimi şərtlər qida təhlükəsizliyi sahəsində dövlət tənzimləməsinin və nəzarət sisteminin təkmilləşdirilməsini zəruri edir.

Ölkə iqtisadiyyatının davamlı inkişaf prinsipləri əsasında şaxələndirilməsi və inklüzivliyinin təmin edilməsi, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli 1138 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına

dair Strateji Yol Xəritəsi"ndə (SYX) dəyər zəncirinin bütün mərhələlərini əhatə edən, risklərin təhlili yanaşmasına əsaslanan təkmil qida təhlükəsizliyi sisteminin formalaşdırılmasını nəzərdə tutan konkret prioritetlər və tədbirlər müəyyənləşdirilmişdir.

SYX-də qeyd edildiyi kimi Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə 2025-ci ilədək olan dövr üçün uzunmüddətli baxış ənənəvi təsərrüfatçılıqdan bazaryönümlü əlavə dəyər yaradan intensiv təsərrüfatçılığa keçidin gücləndirilməsi hesabına rəqabətqabiliyyətli aqrobiznesi formalaşdırmağı nəzərdə tutur.

2025-ci ilədək olan dövr üzrə uzunmüddətli baxış çərçivəsində müəyyən edilmiş məqsəd kənd təsərrüfatı sektorunun tam müasirləşdirilməsi və onun rəqabət qabiliyyətinin gücləndirilməsidir. Buraya məhsulların istehsal həcminin artırılması, yüksək dəyər yaradan bitkiçilik məhsullarının istehsalı və kənd təsərrüfatı məhsulları emalının dəyər zəncirinin seçilmiş sahələri üzrə artırılması daxildir. 2025-ci ilədək ölkənin aqrar sənayesini inkişaf etdirməklə, əhalinin ərzaq təhlükəsizliyi təmin ediləcəkdir.

Respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsinə nəzarət üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2017-ci il 10 fevral tarixli Fərmanı ilə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) yaradılıb. "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti tərəfindən 2017-ci il 13 noyabr tarixli Fərmanla Agentliyin Əsasnaməsi təsdiq edilib.

Agentliyin məqsədi əhalinin sağlam və təhlükəsiz qida ilə təmin edilməsi və bununla da qida mənşəli xəstəliklərin əhəmiyyətli dərəcədə azalması, habelə kənd təsərrüfatı və qida məhsullarının məhsuldarlığının və rəqabət qabiliyyətinin yüksəldilməsi və inkişaf etmiş ölkələrin bazarlarına ixrac həcminin artırılmasına nail olmaqdan ibarətdir.

Agentlik fəaliyyətini şəffaflıq və hesabatlılıq, qərəzsizlik və bitərəflik, sahibkarlarla tərəfdaşlıq, istehlakçı mənafeyinin üstünlüyü, innovativlik, səmərəlilik və nəticəyönümlülük, risk əsaslı yanaşma və beynəlxalq tələblərə uyğunluq prinsipləri üzərində qurub.

Agentliyin fəaliyyət istiqamətlərinə qida təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarət sahəsində normativ tənzimləmə, idxal sağlamlıq aktı, sağlamlıq, baytarlıq və fitosanitar sertifikatlarının verilməsi, qida təhlükəsizliyi ilə bağlı istehlakçıların hüquqlarının müdafiəsinə dövlət nəzarətinin həyata keçirilməsi, qida təhlükəsizliyi sahəsində dövlət tənzimlənməsi, dövlət nəzarəti və əlaqələndirmə, qida sahəsində fəaliyyət göstərən subyektlərin qida təhlükəsizliyi qeydiyyatına alınması, texniki normativ hüquqi aktların tələblərinə uyğunluq qiymətləndirilməklə təsdiqinin həyata keçirilməsi, Qida Təhlükəsizliyi Reyestrinin aparılması və qida zənciri boyu risk əsaslı nəzarətin aparılması daxildir.

Ölkə əhalisinin təhlükəsiz və keyfiyyətli qida məhsulları ilə təmin edilməsi, qida təhlükəsizliyi sisteminin səmərəliliyinin və şəffaflığının artırılması, onun beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə Prezidentin Sərəncamı ilə

“Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı” təsdiq edilmişdir.

Ölkədə aqrar sahənin problemləri ilə bağlı Kənd Təsərrüfatı Nazirliyinin və Azərbaycan Milli Elmlər Akademiyasının 12 elmi-tədqiqat institutu, həmçinin Ekologiya və Təbii Sərvətlər Nazirliyinin və Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin tabeliyində olan ümumilikdə 4 elmi-tədqiqat institutu qismən aqrar sahəyə aid olan problemlər üzrə fəaliyyət göstərir.

Bakıda və regionlarda ən müasir avadanlıqlarla təchiz edilmiş, ən mürəkkəb təhlilləri aparmağa imkan verən 16 laboratoriyadan ibarət şəbəkə formalaşdırılıb.

Azərbaycanda qida təhlükəsizliyinin təmin edilməsi və əhalinin sağlamlığının qorunması məqsədilə ölkədə istehsal edilən, həmçinin idxal və ixrac olunan qida məhsullarının, aqrokimyəvi və baytarlıq preparatları kimi qeyri-qida məhsullarının, eləcə də qida qablaşdırma materiallarının təhlükəsizlik və keyfiyyət göstəriciləri üzrə müayinələrinin aparılması üçün Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun laboratoriyaları ən müasir cihaz və avadanlıqlarla təchiz edilib. Həmçinin İnstitutun Analitik Ekspertiza Mərkəzinin nəzdində fəaliyyət göstərən laboratoriyalar mütəmadi olaraq peşəkarlıq sınaqlarına cəlb edilib, laboratoriyaların akkreditasiyadan keçməsi, beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində zəruri tədbirlər görülüb.

AQTİ-nin fəaliyyəti ilə tanış olan bir sıra dövlət nümayəndələri və beynəlxalq təşkilatların nümayəndələri burada yaradılan şəraiti yüksək qiymətləndirib, laboratoriyalarda ən müasir texnologiyaların tətbiq olunduğunu qeyd ediblər. Hazırda bəzi dövlətlər müasir laboratoriyaların qurulması işində Azərbaycanın təcrübəsindən yararlanmaq istəyir.

Qeyd edilənlərlə bərabər, ölkənin sosial-iqtisadi inkişafının müasir mərhələsində kənd yerlərinin inkişafı siyasətinin qabaqcıl dünya təcrübəsi əsasında təkmilləşdirilməsi aktualdır. İlk növbədə, ölkənin regionlarının sosial-iqtisadi inkişafı tədbirlərinin böyük miqyasda və sürətlə həyata keçirilməsini nəzərdə tutan, mövcud problemlərin birdəfəlik həll olunmasını hədəfləyən və buna görə də daha çox milli səviyyədə planlaşdırma metodologiyasına əsaslanan regionların inkişafı siyasətinin bundan sonra tədricən kənd yerlərinin inkişafı konsepsiyası ilə əvəzlənməsinə ehtiyac vardır. Bu baxımdan, kənd yerlərinin inkişafı üzrə planlaşdırma istiqamətində müvafiq institusional potensialın, o cümlədən kənd yerlərinin inkişafı üzrə ehtiyacları xarakterizə edən monitorinq göstəriciləri sisteminin və müvafiq informasiya bazasının yaradılması aktualdır. Buna uyğun olaraq, yerli özünüidarəetmə orqanlarının və kənd icmalarının kənd yerlərinin inkişafında iştirakının daha da gücləndirilməsini təmin edən institusional mexanizmlər yaradılmalıdır.

Azərbaycan Respublikasında ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin ən mühüm istiqamətlərindən birini təşkil etdiyi üçün növbəti illərdə də bu sahədə görülən işlər genişləndiriləcək, nəzərdə tutulan tədbirlər ölkə əhalisinin zəruri həcmdə və keyfiyyətdə ərzaq məhsulları ilə daimi əsaslarla təmin edilməsinə istiqamətlənəcəkdir.

Ədəbiyyat:
1. Qida təhlükəsizliyi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 5 may 2022-ci il, №523-VIQ
2. Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin yaradılması haqqında. Azərbaycan Respublikası Prezidentinin 10 fevral 2017-ci il tarixli Fərmanı.
3.Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında. Azərbaycan Respublikası Prezidentinin 13 noyabr 2017-ci il tarixli Fərmanı.
4.Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı. Bakı şəhəri, 29 aprel 2019-cu il. № 1143.
5.Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. 6 dekabr 2016-cı il.
6.Azərbaycan Respublikasinin Dövlət Standarti. AZS ISO 22000. 2021.
7. Təhlükəsiz qida ilə sağlam gələcəyə! URL: https://afsa.gov.az/az/haqqinda
8. Ərzaq təhlükəsizliyinin təmin edilməsi cəmiyyətin inkişafının mühüm şərtidir. URL: https://serqqapisi.gov.az/xeberler/erzaq-tehlukesizliyinin-temin-edilmesi-cemiyyetin-inkisafinin-muhum-sertidir

## MƏKTƏBƏQƏDƏR TƏHSİLİN YENİ MƏZMUNU VƏ KADR HAZIRLIĞI MƏSƏLƏLƏRİ

*İsmayılova İlhamə Şubay qızı,*
*İsmayılova Aygün İslam qızı*
*Mingəçevir Dövlət Universiteti*

Müasir dövrdə həyatın bütün sahələrində dəyişikliklər olduğu kimi, təhsil sahəsində də böyük dəyişiklər aparılır. Deməli, məktəbəqədər təhsil də bu dəyişikliklərdən kənarda qalmamışdır və bu dəyişikliklər məktəbəqədər təhsil müəssisələrində çalışan tərbiyəçilərin fəaliyyətinə müsbət təsir etməlidir.

Məktəbəqədər təhsilin dövlət standartlarının reallaşdırılması ilk növbədə təlim prosesinin bütün iştirakçılarından onun reallaşdırması ideologiyasına, tətbiq edilən yanaşmalara düzgün münasibət tələb edir. Bu prosesdə əsas rol onun məktəbəqədər təhsil müəssisələrində onun reallaşdırılmasını təmin edən rəhbərliyə aiddir.

Hazırki dövrdə kreativliyə, yenilikdən istifadə etməyə və onu yaratmağa hazır olan, təcrübi-eksperiment, işlərini aparmağı bacaran məktəbəqədər təhsil müəssisə tərbiyəçilərinin səriştəliliyinin formalaşması; yaradıcılığının inkişaf etdirilməsi problemi mövcuddur. Məktəbəqədər müəssisələrdə metodiki iş xüsusi yer tutur. Metodiki işin keyfiyyətinin yüksəlməsi üçün də tərbiyəçi şəxsiyyətinin aktivləşdirilməsi lazımdır ki, bu da onun yaradıcı fəaliyyətinin inkişafına səbəb olur. Bu baxımdan tərbiyəçilərin vaxtaşırı ixtisasının artırılması sahəsində işlərin aparılması lazımdır.

Standartların reallaşdırıldığı şəraitə xüsusi diqqət yetirmək lazımdır. Aparılan təhlillər konkret problemləri görməyə və onları aradan qaldırmağa imkan verir. İstənilən işin nəticəsi işi kimin və necə görməsindən asılıdır. Məhz bu prosesin